# Tarixi Qələbə çox yaxındadır



***Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev xalqımıza hər gün qələbə müjdəsi verir: İşğaldan azad olunan Zəngilan şəhərinin də mərkəzində Azərbaycan bayrağı qaldırıldı... Azərbaycan Silahlı Qüvvələri iki gün əvvəl isə dövlət sərhədimizdəki qədim Xudafərin körpüsünün üzərində Azərbaycan bayrağını qaldırdı... Xalqımız şübhə etmir ki, bu xəbərləri tezliklə Qubadlıda, Laçında, Kəlbəcərdə, Ağdərədə, Xocavənddə, Ağdamda, Əsgəranda, Xocalıda, Şuşada, Xənkəndində də Azərbaycan bayrağının dalğalanması məlumatları əvəz edəcək.***

İndi möhtərəm Prezidentimiz təkcə bu qələbələrin müjdəçisi deyil, o həm də bu uğurları illər uzunu ağıllı, güclü, xalqını və yurdunu sonsuz məhəbbətlə sevən lider kimi uzaqgörən diplomatiyası, təmkinli siyasəti ilə ərsəyə gətirmişdir. Hər kəsin qəbul etdiyi bir həqiqət ortadadır: Azərbaycan xalqı indiyədək öz rəhbəri ilə bu dərəcədə yekdil olmamışdı. Azərbaycan xalqı bu dilbirliyi ilə dünyaya çox böyük həqiqətləri bəyan etdi. Mənfur ermənilər və bütün dünya dərk etməlidir ki, illər boyu xalqımızın göstərdiyi müstəsna səbr və dözüm işğal olunmuş torpaqlarımızın unudulması ilə deyil, haqlı olduğumuzun təsdiqi, gücümüzün, yurd sevgimizin yüksəlməsi ilə nəticələndi. Xalq nəinki Qarabağı, tarixi İrəvanını, Zəngəzurunu, Göyçəsini, Basarkeçərini, Dərələyəzini... də geri qaytarmağa təşnədir. Və bu mütləq istəyin gerçəkləşməsi zaman məsələsidir.

Bütün bunlar onu deməyə əsas verir ki, Azərbaycan bu ilin 27 sentyabrında başladığı Vətən müharibəsinin ilk günlərindən tarixi qələbəsini təmin etdi. Azğın düşmən Gəncəni, Mingəçeviri, Tərtəri raket atəşinə tutmaqla, dinc insanları–uşaqları, qadınları, qocaları qətlə yetirməklə, soyqırımı törətməklə adamların iradəsini, Qələbə əzmini sındırmaq istəsə də, heç nə alınmadı. Vətən mücadiləsinin ilk günündən Qələbə üçün zəruri şərtlərdən olan mənəvi bütövlük və üstünlük də qazanıldı. İndi Ali Baş Komandan hər gün maddi Qələbəmizin müjdələrini verir. Torpaqların işğaldan azad edilməsi isə bizi son Qələbəmizə günbəgün yaxınlaşdırır.

Bütün olanlar ulu öndərin xilaskarlıq siyasətinin davamçısı Prezident İlham Əliyevin dünya səviyyəli lider olduğunu sübut etdi və onun qalib sərkərdə adını Azərbaycanın qəhrəmanlıq tarixinin Cavanşir, Babək, Atabəy hökmdarları, Xətai və Nadir şahla şərəflənmiş yeni səhifəsinə yazdı. Birinci vitse-prezident Mehriban xanım Əliyevanın adı isə Tomirislərin, Burla xatunların, Nigarların, Həcərlərin çağdaş timsalı kimi yaddaşlara həkk olundu. Azərbaycan xalqı Türk dünyasının bir parçası olduğunu, ağıllı siyasi lider, məğrur sərkərdə ətrafında birləşərək xilaskarlıq amalları uğrunda ölümə belə hazır olduğunu, iqtisadi və hərbi qüdrətini bir daha sübut etdi.

İndi fəxrlə danışa biləcəyimiz və güvənc yeri olan gəncliyimizin fədakarlığını da yaddan çıxarmaq olmaz. Bu zaman kəsiyində elə bir mütəşəkkil gənclik yetişdi ki, onun mübarizliyi də, Vətən sevgisi də, savad və qabiliyyəti də qibtə ediləcək dərəcədə böyükdür. 18--20 yaşlarında olan əsgərin, yetkin Azərbaycan zabitinin döyüş meydanındakı rəşadətləri, xalqımızın arxa cəbhədəki Qələbə təşnəliyi onu göstərir ki, onlar nəinki 30 il əvvəl hiylə və qarışıqlıqlarla atalarından alınmış, həm də yüz illər əvvəl babalarından istila olunmuş torpaqları da Azərbaycanın yeni xəritəsinə yerləşdirəcəklər. Bu amal uğrunda şəhidlik zirvəsinə yüksəlmək hər bir Vətən övladının qürur borcuna çevrilmişdir.

Görünən, danılmaz həqiqət budur ki, yaşından, cinsindən, dilindən və dinindən asılı olmayaraq Azərbaycan xalqının bütövlüyü, amalı, mübarizliyi qəti Qələbəni tezləşdirir. Bizə isə bunu demək qalır: ağıllı və məğrur sərkərdəsi – Ali Baş Komandanı ətrafında sıx birləşərək hünər salnamələri yazan qüdrətli Azərbaycan Ordusuna və xalqına eşq olsun!

***Fəxrəddin AĞAMİRZƏYEV,***
***Füzuli hərbi məhkəməsinin hakimi***

Xalq qəzeti 2020.- 21 oktyabr.- S.9.